## RFID nişanlı sürücülük vesiqesi




Nyu-york sakinləri artıq quraşdırılmış radiotezlikli nişanı olan sürücülük vəsiqəsi ala bilərlər. ABŞ vətəndaşlarının ala biləcəyi təkmilləşdirilmiş sürücülük vəsiqələri ABŞ, Kanada, Meksika, Bermud və Karib adaları sərhədlərini keçərkən, pasport kimi istifadə edilə biləcək. Radiotezlikli nişanda heç bir məlumat qeyd edilmir, radionişanın yalnız öz unikal nömrəsi var, o nömrəylə sənədlərin müəyyən şəxsə mənsub olduğu yoxlanılır.

## RFID vızıldayacaq



Radiotezlikli identifikasiyanın köməyiylə arıların izlənilməsi, təbiət aləminə yeni pəncərə açacaq. Dünya alimləri illərlə arıların vərdişlərini, davranışlarını öyrənirlər. Nəzərə alsaq ki, yediyimiz meyvənin və ya insanın gündəlik tələbatını ödəyən meyvələrin və bitkilərin tozlanmasına arılar cavabdehdi, o zaman onların vərdişlərini öyrənmək çox mühüm məqamdı. Bu həşəratların bellərinə mikroskopik radionişanlar yapışdıraraq onların pətəkdə hərəkətini, həmçinin uçuş istiqamətlərini izləmək mümkündü. Pətəklərin və ya güllərin yanında quraşdırılan izləmə cihazlar həşəratların yer dəyişməsini yadda saxlayırlar. Bundan əlavə, radiotezlikli sistem pətəklərin özlərini də qorumağa imkan yaradır. Belə halda radionişan pətəyə bərkidilir və o hərəkət etməyə başlasa, izləmə cihazı sahibin telefonuna siqnal göndərir. Belə olan halda müvafiq qabaqlayıcı tədbirlər görülür.

## Meşeqıranın dostu



Meşənin idarə edilməsi heç də asan məsələ deyil. Misal üçün, Parisdə bütün ağaclara radionişanlar vurulub. Onların sayəsində ağacın hazırki vəziyyətini və statusunu izləmək olar. Şübhəsiz ki, RFID köməyiylə ağacların identifikasiyası daha asanddı, nəinki ağac üçün sadə etiketlərin istifadəsi. Vaşinqtonda radiotezlikli ağaclar turistlər üçün hətta maraq obyektinə də çevrilib. Radionişanlar ağaca yeridilir, daha sonra ağacın qabığı bitərək onun üstünü örtür. Ekskursiyaya çıxanlar portativ oxuma cihazlarının köməyiylə onları maraqlandıran ağaclar haqqında daha ətraflı məlumat əldə edirlər. Radiotezlikli identifikasiya həmçinin meşəqıranlara taxta-şalbanlara nəzarət etməkdə də kömək edir.